Qurğunun minimal məhsuldarlığı (*8l/saat*) olduğu halda, xəta 3-4%, lakin gün ərzində isə, bu göstərici 0,3-0,44%, təşkil edir. Kondensatın alınması üçün buxar iki tutuma daxil edilir. Temperaturu 70-80^{0}S olan kondensat ölçü tutumuna daxil edilir və bu kondensatın miqdarı çəkisi əvvəlcədən texniki tərəzidə təyin edilmiş balon vasitəsilə ölçülür. Kondensatın alınması üçün aparılan təcrübələrdə qurğunun məhsuldarlığı üzrə olan xətalar 1,8%, qurğunun buxar hazırlamasının ölçülməsi üzrə xətalar 5,2%, gündəlik məhsuldarlığı təyin etmə xətaları 1,4%, istilik məhsuldarlığının təyin edilməsi üzrə xətalar 8,6%, kondensatın alınması üzrə yaranan istilik məhsuldarlığının xətası 4,5%-dən yuxarı qalxmırdı.

Sərf olunan suya görə qurğunun buxar hazırlama məhsuldarlığını aşağıdakı düsturla təyin edək [2]:

$$D = \frac{h \cdot 60}{\tau} kq / saat$$

Burada, h - ölçü çənindəki, suyun sərfidir, kq; τ - təcrübə müddətidir, *dəq*.

Kondensat üzrə qurğunun buxar hazırlama məhsuldarlığını təyin edək

$$D = \frac{60n \cdot C_b}{\tau} kq / saat$$

Burada, C_b - balonun çəkisidir, *kq*, *n* - təjrübə zamanı istifadə olunan kondensləşmiş buxar balonlarının sayıdır.

Günəş energetik qurğusunun istilik məhsuldarlığı (Q_{fay}) aşağıdakı düsturla təyin edilir [3]:

$$Q_{fay} G_{su} c(t_2 - t_1) kC / saat$$

və yaxud,

$$Q_{fay} D(l - q_{su}) kC / saat$$

burada, G_{su} - suyun sərfidir, *kq/saat*; *c* - suyun istiliktutumudur, *kc/kq*, ^0S; t_1 və t_2 – suyun başlanğıc və son temperaturudur, ^0S; l – qızdırıcı buxarın istilik saxlama qabliyyətidir, kC / kq; q_{su} - qidalandırıcı suyun istilik saxlama qabliyyətidir, kC / kq.

Qurğunun f.i.ə.-nı təyin edək [4]:

$$\eta = \frac{Q_{fay}}{Q_{üm}} \cdot 100\%$$

Burada, $Q_{üm}$ - qurğunun üzərinə düşən ümumi günəş radiasiyasıdır.

Qurğuda Abşeron yarımadasının təbii iqlim şəraitinə uyğun olaraq, sınaqlar aparılmışdır. Daha dəqiq nəticələrin əldə edilməsi üçün aparılan təcrübələr zamanı havanın temperaturu, küləyin sürəti, havanın buludlu və ya yarımbuludlu olması nəzərə alınmışdır. Günəş radiasiyasının $200 - 1000 Vt / m^2$ qiymətlərində buxar hazırlama məqsədilə günəş energetik qurğusu ilə birgə helioreaktorun energetik parametrləri tədqiq edilmişdir. Əvvəlcədən, birbaşa, səpələnən və albedo günəş radiasiyası ölçülmüş və müvafiq cihazlar vasitəsilə qeydə alınmışdır [5].

Helioreaktor tərəfindən udulan günəş şüası selinin sıxlığını, qurğunun istilik udma qabliyyətinə və səthin temperaturuna əsasən təyin etmək olar. Burada, əsasən şüalanma və konveksiya yolu ilə itən istilik itkiləri temperaturun artıb və azalması ilə mütənasiblik təşkil edir. Təcrübi olaraq, helioreaktorda baş verən istilik itkilərini təyin etmək üçün, bir sıra parametrlərin dəqiq ölçülməsi yerinə yetirilmişdir.

Eksperimental poliqonda aparılan sınaqlar zamanı, qurğunun helioreaktorunun daxili və xarici səthinin temperaturunu təyin etmək üçün, ora əvvəlcədən kalibrə edilmiş differensial termocütlər yerləşdirilmişdir. Termocütlər isə öz növbəsində potensiometrə birləşdirilmişdir. Aparılmış təcrübi sınaqlardan alınmış nəticələr aşağıdakı şəkil və cədvəllərdə verilmişdir.



Şəkil 1. Helioreaktorun səthindəki fokal ləkənin (1), helioreaktorun yan və arxa divarının (2) və buxarın (3) temperaturunun günəş radiasiyasının intensivliyindən asılılığı.



Şəkil 2. Günəş radiasiyasının intensivliyinin müxtəlif qiymətlərində helioreaktorun daxili temperaturundan asılı olaraq, qurğunun məhsuldarlığının dəyişmə dinamikası.

Qrafikdən göründüyü kimi, helioreaktorun həm, şüa qəbul edən tərəfi, həm də yan və arxa divarlar və buna da müvafiq olaraq, alınan buxarın temperaturu günəş radiasiyasının *200 Vt/m*^{2} qiymətindən başlayaraq tədricən artmağa başlayır. Günəş radiasiyasının *800 Vt/m*^{2} qiymətindən yuxarı isə bu göstəricilər sabitləşir. Yüksək temperatur zamanı, yaranan istilik itkilərinin də çox olması prosesin çıxış parametrlərinin də armasına imkan vermir.

Burada, 1 – helioreaktorun daxili temperaturu 350^0 S, 2 - helioreaktorun daxili temperaturu 280^0 S, 3 - helioreaktorun daxili temperaturu $250^0 S$ - dir.

Şəkil 2-dən göründüyü kimi, güəş radiasiyasının *200 Vt/m*^{2} qiymətindən *700 Vt/m*^{2} intensivliyə qədər qurğunun məhsuldarlığı düz xəttə bərabər olaraq qalxır, lakin daha yüksək intensivliklərdə nisbətən azalma baş verir. Günəş radiasiyasının yüksək intensiv-

liyə malik olduğu zaman ərzində helioreaktorda da yüksək temperatur müşahidə olunur ki, bu da həm şüalanma, həm də konvektiv istilik itkilərinə səbəb olur. Bu halda da, qurğunun məhsuldarlığı azalmağa doğru gedir.

Qeyd edildiyi kimi, poliqon şəraitində təbii sınaqları aparılaraq, ilin fəsilləri üzrə qurğunun məhsuldarlığı təyin edilmiş və alınmış nəticələr aşağıdakı cədvəllərdə verilmişdir.

Cədvəl 1-dən göründüyü kimi, yanvar, fevral aylarında buxarhazırlayıcı günəş energetik qurğusu demək olar ki, gün ərzində orta hesabla 6 saat fəaliyyət göstərirlər. Mart ayında bu göstərici bir qədər də olsa, artaraq, 8-10 saata çatır.

Cədvəl 2-dən göründüyü kimi, aprel ayında buxarhazırlayıcı günəş energetik qurğusu 8 saat, may və iyun ayında isə 12-13 saat fəaliyyət göstərir.

Qış fəsli üzrə günün saatları ərzində buxarhazırlayıcı günəş energetik qurğusunun məhsuldarlığı kq/saat

Cədvəl 1.

Aylar	**Gün**	**Saat**								
		6	**8**	**10**	**12**	**14**	**16**	**18**	**20**	**22**
Yanvar	**1**	-	-	0,1	0,35	0,38	0,15	-	-	-
	5	-	-	0,1	0,27	0,31	0,18	-	-	-
	10	-	-	0,2	0,25	0,3	0,2	-	-	-
	15	-	-	0,2	0,36	0,42	0,2	-	-	-
	20	-	-	0,25	0,55	0,61	0,38	-	-	-
	25	-	-	0,26	0,58	0,69	0,45	-	-	-
Fevral	**1**	-	-	0,28	0,69	0,74	0,65	-	-	-
	5	-	-	0,35	0,6	0,7	0,6	-	-	-
	10	-	-	0,35	0,58	0,7	0,58	-	-	-
	15	-	-	0,42	0,6	0,65	0,54	-	-	-
	20	-	-	0,45	0,65	0,68	0,5	-	-	-
	25	-	-	0,5	0,61	0,7	0,51	-	-	-
Mart	**1**	-	-	0,56	0,7	0,8	0,6	0,3	-	-
	5	-	0,1	0,61	0,7	0,85	0,63	0,45	-	-
	10	-	0,1	0,68	0,9	1,1	0,8	0,6	-	-
	15	-	0,1	0,71	0,95	1,6	1,2	0,9	-	-
	20	-	0,15	0,88	1,4	1,9	1,6	1,1	-	-
	25	-	0,3	1	2,2	2,6	1,9	1,25	-	-

Yaz fəsli üzrə günün saatları ərzində buxarhazırlayıcı günəş energetik qurğusunun məhsuldarlığı kq/saat

Cədvəl 2.

Aylar	**Gün**	**Saat**								
		6	**8**	**10**	**12**	**14**	**16**	**18**	**20**	**22**
Aprel	**1**	-	-	1,3	2,8	2,7	2	1,4	-	-
	5	-	-	1,3	2,9	3	2,8	1,5	-	-
	10	-	-	1,4	3	3	3	2,1	-	-
	15	-	-	1,4	3,1	3,2	3	2,1	-	-
	20	-	-	1,5	3	3,2	3,1	2,6	1,1	-
	25	-	-	1,5	3,2	3,3	3,2	2,6	1,1	-
May	**1**	-	0,6	1,6	3,3	3,4	3,3	2,85	1,3	-
	5	-	0,6	1,7	3,3	3,5	3,4	3	1,4	-
	10	-	0,8	1,8	3,4	3,5	3,4	3,1	1,4	-

	15	-	0,85	1,85	3,4	3,6	3,5	3,25	1,5	-
	20	-	1	2,1	3,8	3,95	3,8	3,6	1,8	-
	25	-	1,3	2,25	3,9	4,2	4	3,8	2,1	-
İyun	**1**	-	1,5	2,6	4,2	4,9	4,6	4,1	2,6	-
	5	-	1,7	2,9	4,7	5,3	5	4,6	3	-
	10	-	2	3,6	5,1	6	5	4,85	4	-
	15	-	3,1	4,6	5,8	7,1	6,2	5,5	4,6	2
	20	0,4	3,6	5,7	6,9	8	6,6	6,1	5,8	2
	25	0,7	3,95	5,9	7,2	9,2	7,3	7,1	6,6	4,7

Yay fəsli üzrə günün saatları ərzində buxarhazırlayıcı günəş energetik qurğusunun məhsuldarlığı kq/saat

Cədvəl 3.

Aylar	**Gün**	**Saat**								
		6	**8**	**10**	**12**	**14**	**16**	**18**	**20**	**22**
İyul	**1**	0,9	4,1	6,5	7,8	10	7,9	7,2	6,8	4,7
	5	0,9	4,25	6,9	8,3	11,2	8,5	7,5	6,9	4,8
	10	0,9	4,6	7,3	8,9	11,5	9	7,9	7,1	4,8
	15	1	4,9	7,8	9,3	12,6	9,6	8,6	7,3	4,8
	20	1,1	5,5	8,2	10,6	13,5	11	8,9	7,4	4,9
	25	1	5,8	8,6	11	14,2	11,5	9,3	7,5	4,6
Avqust	**1**	0,8	5,8	9,8	11	14,6	12,6	9,5	7,3	4,1
	5	0,8	5,6	10,6	12,2	14,5	12,6	9,4	7,4	3,55
	10	0,55	5,4	11	12,5	14,5	12,7	9,1	7,4	3,1
	15	0,2	5,1	10,4	11,9	14,4	12,1	8,2	7,2	2,6
	20	0,1	4,3	10,1	11,7	14,3	12,1	7,9	7	2,2
	25	-	4	9,2	11,2	14,1	11,5	6,6	6,5	1,95
Sentyabr	**1**	-	3,85	8,3	9,8	13,9	11	5,8	6,1	1,8
	5	-	3,6	7,2	9,1	12	9,6	4,9	5,4	1
	10	-	3,2	6,3	8,3	11,1	9,1	4,5	4,95	0,2
	15	-	3,1	5,1	7,2	10,2	8,3	4,1	4,1	-
	20	-	2,9	4,2	6,2	9,3	7,6	3,6	3,2	-
	25	-	2,8	3,3	5,1	7,9	5,5	3,1	2,3	-

Cədvəl 3-dən göründüyü kimi, il ərzində ən böyük məhsuldarlıq yay fəslində müşahidə olunur. Xüsusilə. iyul və avqust aylarında qurğu gün ərzində 15-16 saat iş qabliyyətinə malik olur. Sentyabr ayında isə, bu göstərici bi az azalaraq, 12 -14 saata çatır.

Payız fəsli üzrə günün saatları ərzində buxarhazırlayıcı günəş energetik qurğusunun məhsuldarlığı $kq/saat$.

Cədvəl 4.

Aylar	**Gün**	**Saat**								
		6	**8**	**10**	**12**	**14**	**16**	**18**	**20**	**22**
Oktyabr	**1**		2,6	3,1	5	7,1	5,3	2,6	2	-
	5	-	2,1	2,95	4,86	6,5	5	2,1	1,2	-
	10	-	1,6	2,7	4,62	6,1	4,8	1,3	0,7	-
	15	-	1,2	2,6	4,21	5,1	4,4	1	0,3	-
	20	-	0,86	2,48	3,8	4,2	4,15	0,8	0,1	-
	25	-	0,2	2,2	3,6	3,3	4	0,6	-	-
Noyabr	**1**	-	-	2	3,25	2,4	3,8	0,4	-	-
	5	-	-	1,6	3,12	1,8	3,5	0,1	-	-
	10	-	-	1,4	2,96	1,6	3,1	-	-	-
	15	-	-	1,25	2,77	1,3	2,8	-	-	-
	20	-	-	1,1	2,4	1,3	2,6	-	-	-

	25	-	-	0,9	2,1	1,15	2,15	-	-	-
Dekabr	**1**	-	-	0,8	1,6	1	1,6	-	-	-
	5	-	-	0,7	1,45	0,9	1	-	-	-
	10	-	-	0,5	1,2	0,8	0,7	-	-	-
	15	-	-	0,3	0,9	0,8	0,5	-	-	-
	20	-	-	0,2	0,6	0,5	0,3	-	-	-
	25	-	-	0,1	0,36	0,42	0,2	-	-	-

Nəticə

Aparılmış təcrübələrə əsasən demək olar ki, günəş energetik qurğusunun məhsuldarlığının ən yüksək göstəriciləri yay və yaz fəsillərində, aşağı göstəriciləri isə payız və qış fəsillərində təyin edilmişdir. Eksperimental nəticələrin analizi göstərir ki, bu tipli qurğular buxar tələb olunan istənilən texnoloji prosesdə etibarlı şəkildə istifadə oluna bilər.

Ədəbiyyat

1. Məmmədov F.F. Azərbaycanda günəş enerjisindən istifadə və müasir günəş energetik qurğuları. Bakı.: 2011. Proqres, 204 səh.
2. Bədəlov Y.A., Naziyev Y.M. İstilikötürmə, Bakı. Maarif, 1999. 452 c.
3. Твайделл Дж., Уэйр А. Возобновляемые источники энергии: Пер. с англ. М.: Энергоатомиздат, 1990, 392 с.
4. Теплотехнический справочник. Том 1. Под обшей редакции В.Н. Юрнева и П.Л. Лебедева. М.: Энергия, 1975, 77 с.
5. Mammadov F.F. Yearly Average Maps of Solar Radiation in Azerbaijan. “Energy and Power”. Volume 3, Number 4, 2013. pp. 44-50

Экспериментальное исследование солнечной пароподготовительной установки в натурных климатических условиях Апшеронского полуострова

Ф.Ф.Мамедов

В статье рассматривается вопросы исследование солнечной энергетической установки для подготовки пара в натурных условиях Апшеронского полуострова.

Получены экспериментальные результаты и зависимости установки от интенсивности солнечной радиации.

Experimental study of solar steam generator plantin natural climatic conditions of the Absheron peninsula

F.F.Mammadov

The article deals with the research of solar power plant for the preparation of steam in natural conditions of the Absheron peninsula. The experimental results and the plant depend on the intensity of solar radiation.

Açar sözlər: günəş enerjisi, buxar generatoru, təcrübi nəticələr, Abşeron yarımadası.

Ключевые слова: солнечная энергетика, парогенератор, экспериментальные результаты, Апшеронский полуостров.

Keywords: solar energy, steam generator, experimental results, Absheron peninsula.

Məqaləni çap olunmaq üçün Azərbaycan Dövlət Neft Akademiyası “Neft yataqlarının işlənməsi və istismarı” kafedrasının müdiri, RTEA-nın akademiki, əməkdar elm xadimi, t.e.d., professor T.Ş.Salavatov təqdim etmişdir.

UOT 696/697(031)

Magistr E.A. PAŞAYEV, dos. N.İ. ƏLIYEV

SUMQAYIT TEXNOLOGIYALAR PARKI (STP) VƏ ONUN KANALIZASIYA SISTEMININ ÖZƏLLIKLƏRI

Sumqayıt Texnologiyalar Parkı regionda bərabəri olmayan müxtəlif istehsalatlar üzrə ixtisaslaşmış nəhəng zavodlar kompleksidir. Regionda unikal layihə olan STP-nin yüksək potensialı yerli biznesin inkişafına təkan verməklə yanaşı Azərbaycanın da daxili bazarını, hətta ixracatını təmin etməyə qadirdir.

Texnoparkın məhz Sumqayıtda yaradılması Azərbaycanın iqtisadi cəhətdən inkişafına əhəmiyyətli dərəcədə təkan verməklə yanaşı, vaxtilə Qafqazda sənaye mərkəzi kimi yaradılan Sumqayıtın tarixi ənənələrinin bərpası deməkdir.

STP yalnız elektroenergetika və digər sənaye sahələri üçün mühüm əhəmiyyətli avadanlıq və materiallar istehsal edəcək bir sənaye mərkəzi kimi deyil, həm də Azərbaycanın sürətli və davamlı inkişafını özündə əks etdirən geniş profilli yüksək texnologiya, ekoloji və innevativ mühəndislik mərkəzidir. Bu məqsədlə STP-də dünyanın aparıcı şirkətlərinin avadanlıq və texnologiyası tətbiq edilir. Müasir texnoparkın tikilməsi, layihənin dizaynı, mühəndislik və inşaat-quraşdırma işləri enerji tikinti işləri "Azenco" ASC-nin daxili potensialı hesabına həyata keçirilmişdir. Hazırda müəssisənin tikinti-quraşdırma və istehsalat sahəsində 3000-ə qədər işçi çalışır. Bütün zavodlar işə düşdükdən sonra işçi qüvvəsinin sayı 5500-ə çatdırılacaq ki, bu da gələcəkdə Azərbaycan iqtisadiyyatının inkişafına təkan verməklə yanaşı, əhalinin sosial həyat səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəlməsinə kömək edəcəkdir. 2009-cu il dekabr ayının 24-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən istismara verilmiş Sumqayıt Texnologiyalar Parkında hazırda 12 zavod fəaliyyət göstərir.

- kabel zavodu
- Plastik boru istehsalı zavodu
- Alüminium elektrotexniki çubuqlar sexi
- Mis elektrotexniki çubuqlar sexi
- Elektron cihazlar zavodu
- Qaynar sinkləmə zavodu
- Yüksək gərginlikli elektrik avadanlıqları zavodu
- Günəş kollektorları zavodu
- Dəqiq emal mərkəzləri zavodu
- Maşınqayırma zavodu
- Metal konstruksiyaları zavodu

Kabel zavodu regionda ən iri, yüksək texnoloji təchiz edilmiş müəssisələrdən biridir. Keyfiyyəti daima nəzarət altında saxlanılan məhsulun istehsal prosesi yalnız qərb texnologiyası əsasında Finlandiya, Avstriya, Almaniya, İspaniya və Fransa kimi ölkələrin avadanlıqlarında həyata keçirilir.

Plastik boru istehsalı zavodu plastik boruların istehsalı üzrə ixtisaslaşmış və Sumqayıt Texnologiyalar Parkının perespektevli müəssisələrindən biri olaraq 2009-cu ilin dekabr ayından fəaliyyət göstərir. Fəaliyyətə 7 istehsal xətti ilə başlayan müəssisəyə daha 5 yeni istehsal xətti quraşdırılaraq uğurla istifadəyə veilmişdir. Mis və Alüminium elektrotexniki çubuqlar yarımfabrikat kimi kabel istehsalında, radioelektronika və başqa sahələrdə istifadə olunur.

STP-də Mis və Aliminium elektrotexniki çubuqlar istehsalı sexi İtaliya texnologiyası və avadanlıqları bazasında tikilmişdir və 2010-cu ildə istismara buraxılmışdır.

Elektron cihazlar zavodunda əsasən birfazalı öncədən ödənişli "Smart" tipli elektron elektrik sayğaclar istehsal olunur. Bu sayğaclar yüksək dəqiqliyə malikdir və ən müasir texnologiyalara əsaslanan xüsusi testlərdən keçirilir.

Azərbaycanda analoqu olmayan ilk Sinkləmə zavodu Sumqayıt texnologiyalar Parkında inşa edilmişdir. Burada sinkləmə prosesi Avstriyanın "Koerner" şirkəti tərəfindən tətbiq edilən texnologiyalara əsaslanır. Müəssisənin məhsuldarlığı ildə 40000 ton təşkil edir. Yüksək gərginlikli elektrik avadanlıqlarının istehsalı zavodu (YGEAİZ) Sumqayıt Texnologoiyalar Parkının tərkibinə daxil olan ən iri və ən müasir müəssisələrdən biridir. Hal-hazırda müəssisədə müxtəlif ölçülü 0,4kv-lıq elektrik dolabları, smart-kart tipli sayğac dolabları, 6-10-35 kv-lıq elektrik avadanlıqları istehsal olunur.

Sumqayıt Texnologiyalar Parkında Günəş kollektorları və boylerlərin (qazanların) istehsalı sahəsi fəaliyyət göstərir. Yüksək keyfiyyəy və effektliyə malik olan bu kollektorların iş prinsipi Günəş enerjisinin vasitəsilə suyun qızdırılmasından ibarətdir.

"Dəqiq emal mərkəzləri zavodu", "Maşın mexanizmlərinin işlək detallarının dəqiq emalı və hazırlanması" "Trubin avadanlıqla-

rının işlək hissələrinin emalı", generatorların və avtomobillərin işlək detallarının və digər emalı sahəsindən ibarətdir.

Texniki qazlar zavodu Sumqayıt Texnologiyalar Parkında fəaliyyət göstərən iri istehsal sahələrindən biridir. Qısa vaxt ərzində fəaliyyətə başlamasına baxmayaraq hazırda istehsal imkanlarını genişləndirməklə yanaşı, yüksək keyfiyyətli maye və qaz halında oksigen, azot və arqon istehsal edir. Maşınqayırma zavodunda müxtəlif tikinti və sənaye yüklərinin daşınmasında istifadə edilən müxtəlif təyinatlı qoşqular və yarımqoşqular, dəmiryolu üçün vaqon çənlər, yük avtomobillərinin şassiləri üzərinə quraşdırılan qaldırıcı qurğular, yük avtomobillərinin kuzaları və digər köməkçi hissələr istehsal edilir.

Metal konstruksiyalar zavodu STP-də ən nəhəng istehsal sahələrindən biridir. Zavod artıq tam gücü ilə işləyir.Avropanın öndə gedən sənaye ölkələrinin son texnologiyaları və avadanlıqları mütəxəssislər tərəfindən burada quraşdırılıb. Hazırda 330 kv-luq dayaqlar, işıq dirəkləri və s. konstruksiyaların hazırlanması həyata keçirilir. Bütün bunlarla yanaşı nəhəng istehsal potensialına malik olan Sumqayıt Texnologiyalar Parkı daha 13 sahədə istehsalını genişləndirməyi planlaşdırır. Texnoparkdakı müəssisələrdən Qaynar sinkləmə zavodu, dəqiq emal mərkəzi zavodu və maşınqayırma zavodu müstəsna olmaqla digər müəssisələr hamısı kanalizasiya şəbəkəsinə yalnız məişət çirkli suları axıdılır.

Texnopark tam ayrılmış kanalizasiya sisteminə malikdir. Məişət və istehsalat çirkli suları birlikdə parkda mövcud olan çirkli su təmizləmə qurğularında tam bioloji təmizlənib zərərsizləşdirildikdən sonra Sumqayıt çaya axıdılır. Atmosfer çöküntüləri isə ayrıayrı kollektorlarla yığılıb, sonda məişət şəbəkəsinə paralel çəkilmiş kanalla Sumqayıt çaya axıdılır.

Sumqayıtın ekoloji vəziyyətini yaxşılaşdırmaq məqsədilə apardığımız tədqiqat nəticəsində yarım ayrılmış kanalizasiya sistemi qəbul edib, xeyli çirkli olan yağışlarının ilk anını plot-filtrlərlə təmizləyib, sonra məişətlə birlikdə vahid kollektorla axıtmaqdır.

Ədəbiyyat

1. Правила охраны поверхностные воды от загрязнения сточности водами. Москва-1975
2. Правила охраны от загрязнения прибрежных вод морей Москва-1984
3. F.S. Quliyev, N.İ. Əliyev, T.R. Süleymanov. Şəhər çirkli sularının təmizlənməsi. Bakı-2006.

Резюме

В статье рассматривается о возможности применение плот-филтров в системе канализации СТП.

Məqaləni çap olunmaq üçün
Azərbaycan Dövlət Neft Akademiyası
"Neft yataqlarının işlənməsi və istismarı"
kafedrasının müdiri, RTEA-nın akademiki,
əməkdar elm xadimi, t.e.d., professor
T.Ş.Salavatov təqdim etmişdir.

УДК-621-91.02

А.П. РУСТАМОВ, адъюнкт; О.О. СМИЛОВЕНКО, к.т.н., доцент

Командно-инженерный институт МЧС Республики Беларусь

РЕЖУЩИЙ ИНСТРУМЕНТ ДЛЯ АВАРИЙНО-СПАСАТЕЛЬНЫХ РАБОТ С НОВЫМИ УЛУЧШЕННЫМИ ХАРАКТЕРИСТИКАМИ

Во всем мире в практике спасательных работ спасательные и пожарные формирования применяют специальный инструмент и средства малой механизации. К таким инструментам относится бензорез, назначением которого является вскрытие конструкций, разрушенных или поврежденных зданий и сооружений, а также выполнение технологических отверстий для проведения разведки, отвода воздуха,

обеспечения связи и эвакуации пострадавших людей, находящихся в завалах и труднодоступных местах.

“Основным критерием при конструировании режущего инструмента для выполнения аварийно-спасательных работ является фактор времени, то есть скорость реза. Скорость реза в совокупности с надежностью должны определять технико-эксплуатационные и конструктивные параметры алмазных отрезных кругов” (1, с.30).

Несмотря на то, что в настоящее время органы и подразделения по ЧС в Республике Азербайджан оснащены в основном бензорезами импортного производства, режущие алмазные круги являются сменным элементом и могут быть заменены кругами с повышенными характеристиками. Посадочные места режущих кругов стандартизированы, поэтому при организации выпуска новых кругов на модифицированной связке они будут подчиняться требованиям взаимозаменяемости и смогут работать на приводе Husqvarna, Hitachi, Штил, Халматра и.т.д.

Работоспособность алмазных инструментов в значительной степени определяется прочностью алмазных зерен и надежностью их закрепления в матрице (связке). Исследования особенностей разрушения алмазного слоя позволяют сделать вывод о том, что его структура и свойства, а также процессы, происходящие в нем при работе инструмента, в значительной степени определяют ресурс инструмента. Опыт эксплуатации серийно производимого алмазного инструмента на металлической связке показывает, что большей частью алмазные зерна, выпавшие из связки, не выработали свой ресурс. Поэтому управление процессами, протекающими в зоне контакта алмазов и связки при изготовлении инструмента, с целью получить заданные структуру и свойства адгезионной зоны, может служить основой повышения надежности закрепления зерен и, соответственно, работоспособности инструмента в целом.

“Металлические связки представляют собой многокомпонентные порошковые смеси, основными составляющими которых являются Co, Cu, W, Al, легированные соединениями Ti, B и другими элементами. Разработка новых металлических связок с улучшенными эксплуатационными свойствами является актуальной проблемой. Практически ставится задача создания нового класса инструментальных материалов. Большие возможности в этом плане открывает технология получения металлических связок, модифицированных ультрадисперсными алмазами (УДА)” (2. с, 67).

Углеродные наночастицы обладают высокой поверхностной энергией, и как следствие, склонностью к конгломерации, поэтому модифицирование металлических связок невозможно без диспергирования этих частиц ультразвуковой обработкой. Использование ультразвука в технологии диспергирования связано с рядом специфических явлений, сопровождающихся распространением ультразвуковых колебаний в жидких средах. Действие ультразвука на дисперсную фазу в жидкой среде заключается в том, что в гетерогенной системе на границе раздела фаз возникают зоны сжатия и разрежения. Образуется ударная волна высокой интенсивности, которая приводит к механическому разрушению твердых частиц. Определенный вклад в измельчение и смешивание частиц вносят их соударения друг с другом и трение о жидкость. После ультразвуковой обработки порошок УДА механически смешивался с металлическим порошком связки в порционном смесителе роторного типа. При спекании алмазосодержащих материалов важно обеспечить надежный контакт алмаз – связка и сохранить при этом высоких режущие свойства алмазных зерен. Основными параметрами электроконтактного способа, влияющими на условия спекания, являются амплитуда тока и длительность электрического импульса, которые определяют тепловой режим процесса. В данном случае амплитуда тока и длительность разряда – задаваемые параметры, температурное поле после прохождения

импульса тока регулируется технологической оснасткой.

Исследование микроструктуры металлических связок. Для исследований микроструктуры металлических связок, модифицированных УДА, методом электроконтактного спекания были изготовлены образцы с размерами: ∅12 м, h 10 мм. Изготовленные образцы метали-ческой связки имели следующий состав: №1-80% Cu, 20% Sn, 2% Pb + ультрадисперсный алмаз и №2, представляющий собой систему (Co-Ni-W)+ультрадисперсный алмаз). Концентрация алмазного ультрадисперсного порошка определена на основе предварительных экспериментов и составляет 0,5 объемных процентов. Для проведения исследований изготовлены шлифы. Исследование элементного состава проводилось на аттестованном сканирующем электронном микроскопе «Нанолаб-7» фирмы «Оптон» (ФРГ) с микрорентгеноспектральным анализатором АМ 10000 фирмы «Линк Аналитикл» (Англия) по программе количественного анализа ZAF4-FLS.

Гомогенность структуры изучалась на световом микроскопе “MeF-3” фирмы “Reichert” (Австрия) при увеличении х100. Следует отметить, что в образце №1 наблюдается неравномерная пористость, смещенная к одному из краев. Микроструктура образца № 1 состоит из следующих структурных составляющих: участков Cu, а-твердого раствора Sn в Cu, включений РЬ по границам и внутри зерен. Структурные составляющие распределены практически равномерно по сечению образца.

В образце № 2 присутствует локально распределенная пористость. Размер пор находится в диапазоне 5-30 мкм. Микроструктура образца №2 представляет собой твердый раствор Co в Ni с включениями W.

В целом, это не оказывает большого влияния на гомогенность структур обоих связок. Некоторая повышенная пористость у образца на медной связке объясняется последеформационным расширением. На физико-механические характеристики связки это не повлияло, что подтвердили измерения микротвердости обеих связок.

Исследование дюрометрических свойств металлических связок. “Микротвердость измерялась на микротвердомере «Micromet-II» фирмы «Buehler» (Швейцария) с нагрузкой 100 г. Графики изменения микротвердости приведены на рисунках 1 (для образца связки №1) и 2 (для образца связки №2), причем измерение микротвердости осуществлялось как по диаметру образца, так и по его высоте” (3, с. 33).

Триботехнические испытания металлических связок, модифицированных УДА. Рассмотрим механизм взаимодействия алмазного зерна и модифицированной связки с обрабатываемым материалом. Процесс износа модифицированного алмазоносного слоя состоит из нескольких взаимосвязанных и одновременно протекающих фаз: абразивного износа и механического удаления (вырывания) зерен, а также абразивного истирания связки. Вырывание зерен из связки происходит в результате воздействия на них тангенциальных составляющих силы резания, а абразивное истирание связки-вследствие воздействия на нее мелкодисперсных продуктов разрушения.

Если связка имеет износостойкость ниже оптимальной, алмазные зерна преждевременно из нее выпадают, в результате чего они используются нерационально. Если износостойкость связки выше оптимальной, на вершинах режущих алмазных зерен образуются значительные площадки, в результате чего для их внедрения в обрабатываемый материал требуются дополнительные силы, которые приводят к возникновению больших усилий резания, разрушению алмазоносного слоя.

Рисунок 1. Микротвердость образца на основе меди

Рисунок 2.Микротвердость образца на основе кобальта

“Триботехнические свойства металлических связок изучались при помощи специальной установки для триботехнических испытаний материалов (УТИМ-2). Триботехническим испытаниям были подвергнуты металлические связки, модифицированные ультрадисперсным алмазным порошком соответствующей концентрации. В процессе испытаний производились измерения коэффициента трения, температуры фрикционного разогрева и суммарного износа образцов. Получены закономерности износа связок в зависимости от степени легирования их порошком ультрадисперсного алмаза. Кинетику износа отражает изменение коэффициента трения на определенном пути и за определенное время (2 часа) при одинаковой нагрузке – 10Н ” (4, с. 47).

Так, для связки М2-01 наиболее оптимальной является 0,5% концентрация УДА, при которой коэффициент трения изменяется в пределах 0,2-0,25 за время – 4 часа, в то время, как коэффициент трения «чистой связки» находился на уровне 0,95 в течение 2-х часов.

Заключение

Микрорентгеноспектральные исследования экспериментальных образцов режущих элементов показали высокую гомогенность спеков, повышение их микро-

твердости. Равномерное распределение модифицирующих наноалмазных частиц позволяет выровнять удельное электросопротивление спекаемого слоя, что приводит к получению гомогенной структуры спека по всему объему.

Установлено, что оптимальной концентрацией легирования металлических связок порошком УДА является диапазон 0,5-0,75%. Повышение твердости модифицированных связок снижает интесивность их изнашивания и повышает прочность алмазоудержания, о чем говорит снижение удельного расхода алмазного сырья – на 10%. Однако, увеличение концентрации УДА до 1% и выше приводит к резкому повышению коэффициента трения и температуры в зоне обработки, увеличивает твердость связки, снижает ее пластичность, затрудняет процесс вскрытия новых режущих зерен, что приводит к ухудшению эксплуатационных свойств алмазного инструмента.

Режущие круги, изготовленные на основе модифицированных связок обладают физико-механическими и триботехническими свойствами, отличными от стандартных. Благодаря более низкому коэффициенту трения, окружная скорость обработки выросла на 15-20%, глубина пропила на 10%, производительность на 25-30%. Увеличилась также и общая стойкость инструмента.

Использование алмазных сегментов с новыми свойствами позволит увеличить скорость резания, что повысит эффективность проведения аварийно-спасательных работ, а выявленное в результате эксплуатационных испытаний повышение стойкости, позволит реже производить замену изношенного инструмента и сократит время его простоя.

ЛИТЕРАТУРА

1. Металлическая связка для получения композиционного материала и способ ее приготовления. Смиловенко О.О. и др. //Патент РБ на изобретение № 10305, - Опубл. 28.02.08 г. в Официальном бюллетене «Изобретения. Полезные модели» №1, 2008 г.
2. Лоладзе Т.Н., Г.В.Бокучава Износ алмазов и алмазных кругов. М:, «Машиностроение», 1967, 113 с.
3. Бакуль В.Н., Никитин Ю.И., Верник Е.Б., Селех В.Ф. Основы проектирования и технологического изготовления абразивного алмазного инструмента. М:, «Машиностроение». 1975, 120 с.
4. Семенов А.П., Поздняков В.В., Крапошина Л.Б. Трение и контактное взаимодействие графита и алмаза с металлами и сплавами. М:, 1974, 84 с.

Мягаляни чап олунмаг ццн "Фювгяладя щаллар вя щяйат фяалийййятинин тящлцкясизлийи" кафедрасынын досенти Q.Hacımətov məqdim etmişdir.

UOT 651.27

M.A. İSMAYILOV

Azərbaycan Texniki Universiteti

ŞƏBƏKƏ TOPOLOGİYALARI VƏ TƏRKİB HİSSƏLƏRİ

Məlumata sürətli və etibarlı bir şəkildə müraciət etmək, iş dünyası və müəssisələr üçün hər zaman ən xüsusi tələbatlardan biri olmuşdur. Məlumatın maqnit yaddaş qurğularında saxlanılması, bir yerdən başqa bir yerə köçürülməsi əlavə xərcə, həm də zaman itkisinə səbəb olur, çünki bu paylaşma məsafəsi eyni otaq və ya bina daxilində ola biləcəyi kimi, minlərcə kilometr uzaqlıqda da ola bilər.

Kompüter şəbəkəsi sayəsində dünyanın hər hansı bir yerində paylanan məlumata anında müraciət edə bilmə imkanı əldə edilmiş, hətta ictimai, ticarət və dövlət işlərinin belə kompüter vasitəsilə qısa zaman içərisində aparılması təmin edilmişdir.

Şəbəkə mövzusu olduqca dərin və çox geniş bir mövzudur. Buna görə də bu bölmədə sadəcə kompüter şəbəkə kartları, şəbəkə topologiyaları və sadə bir şəbəkə strukturunun iş prinsipini şərh edəcəyik. Kompüter şəbəkəsi, əsasən kompüterlər arasında məlumat mübadiləsi aparmaq imkanını təmin edən bir sistemdir. Kompüter şəbəkəsi üçün bütün istifadəçilərin bildiyi və beyinlərində canlandıra biləcəyi ən gözəl nümunə İnternetdir. İnternet dünyanın hər yerindən milyonlarca insanın müraciət edə bildiyi bir kompüter şəbəkəsidir.

Hazırda çox eşitdiyimiz bu iki termini bir neçə cümlə ilə şərh etməkdə fayda vardır. Lokal sahə şəbəkəsi (Local Area Network) əsasən eyni binada olan bir-birinə yaxın kompüterlərin şəbəkə kartları və şəbəkə kabelləri vasitəsilə qoşulmasıdır. Qlobal sahə şəbəkəsi (Wide Area Network) isə bir-birindən yüzlərcə kilometr uzaqlıqda yerləşən kompüterlərin, müxtəlif şəbəkə qurğuları vasitəsilə əlaqələndirilməsi ilə meydana gələn şəbəkədir. Məsələn, bir şirkətin iki müxtəlif şəhərdəki ofisi və ya bankların istifadə etdikləri ATM cihazlarının qoşulma şəkli, hər kəs tərəfindən bilinən qlobal sahə şəbəkələridir. Qlobal sahə şəbəkə əlaqələri əsasən telefon xətti və kirayə edilmiş PTT xətləri ilə qurulur.

LAN və WAN sürət və etibarlılıq baxımından müqayisə edildiyindən LAN-ın daha üstün olduğu görünür. Fiber-optik kabel və əlaqə Texnologiyası ilə birlikdə LAN uzaqlıq məhdudiyyəti də daha elastik hala gəlmişdir, lakin WAN-da hər keçən gün daha yüksək sürət əldə edilməkdədir.

1973-cü ildə Xerox şirkətində işləyən Bob Metcalfe tərəfindən PARC (Palo Alto Research Center) mərkəzində inkişaf etdirilərək ilk dəfə sınaqdan keçirildi. Ethernet o tarixdən etibarən geniş yayılmağa başladı və sürətə inkişaf etdirildi.

Ethernet standartı inkişaf etdirilərək kompüter şəbəkəsi sahəsində yerini aldı, ancaq hər nə qədər inkişaf etdirilsə də, ilk çıxan Ethernet standartının əsası hələ də istifadə edilməkdədir. Ethernet əsas olaraq şəbəkə üzərində paylaşdırılan qurğuların kabel vasitəsilə bir-biriləri ilə əlaqəsini təmin edir. Bu kabelə birləşdirilən hər qurğu, digər qurğulara mənbələrini paylaşmağa hazırdır.

Ethernet bir lokal sahə şəbəkəsi texnologiyasıdır. Əsasən bir bina daxilində kompüterlər arasında qurulan, xərci azaltma və iş məhsuldarlığını artırmağa istiqamətlənmiş şəbəkələrdə istifadə edilir, lakin hazırda inkişaf edən texnologiya ilə birlikdə, onlarca kilometr uzaqlıqdakı kompüterlər arasında da Ethernet standartına əsaslanan bir şəbəkə quramaq mümkündür.

Protokol kompüterlərin bir-biriləri ilə informasiya mübadiləsi aparmalarını təmin edən bir vasitədir. Protokolları ən sadə halda, kompüterlərin bir-birilərini başa düşməsini təmin edən dillər olaraq göstərə bilərik. Necə ki, insanların bir-biriləri ilə əlaqə qura bilmələri üçün eyni dili danışmaları və ya başa düşmələri lazımdırsa, şəbəkə üzərində kompüterlərin də bir biriləri ilə əlaqə qura bilmələri üçün eyni protokolları istifadə etmələri lazımdır.

Necə ki, istifadə etdiyimiz danışıq dillərində bir sıra qaydalar vardır, Ethernet protokollarında da riayət edilməsi lazım olan bir sıra qaydalar vardır. Göndərilən paketin böyüklüyü, paketin çıxdığı ünvan, paketin gedəcəyi ünvan və göndərənə aid Ethernet ünvanı, əlaqə prosesində istifadə edilən qaydalardan əsas olanlarıdır. Şəkildə Ethernet şəbəkə əlaqəsinə aid bir nümunə göstərilmişdir (şəkil 1).



Şəkil 1. Ethernet şəbəkə əlaqəsi

Ethernet ətrafında olan hər qurğudan göndərilən siqnal bütün qovşaqları dolaşır. Yuxarıda şərh edilən məlumatları üzərində saxlayan siqnal hər qovşaqda olan qurğu tərəfindən ayrı-ayrılıqda sorğu edilir. Siqnalın özünə aid ünvan məlumatları olmadığını görən qurğular siqnalı rədd edərək təkrar Ethernet sahəsinə geri göndərir. Siqnal uyğun qovşağa çatdığında, o qovşaqda olan qurğu tərəfindən alınır və əməliyyatlar yerinə yetirilir.

Ethernet şəbəkəsi üzərindəki hər qurğu daşıdığı ünvan məlumatlarını ardıcıl olaraq yayımlayır. Bunun sayəsində qovşaqlara gələn siqnalın daşıdığı hədəf ünvanı ilə yayımlanan ünvanın uyğun gəlməsi halında, siqnalın doğru ünvana çatması və alınması, daha sürətli və etibarlı şəklidə təmin edilmiş olur.

ƏDƏBİYYAT

1.Ə.M.Abbasov, E.V.Seyidzadə, M.N.Əlizadə, M.Ə.Salmanova. “İnformatika və kompüterləşmənin əsasları”, Bakı, 2005.
2. M.N.Əliyev, E.V.Seyiddov, A.D.Hüseynova, “Kompüter Təlimi”, Bakı, 2002.
3. Z.Sultanzadə, N.Hüseynova, “Elektron aparatlarının periferiya gurğuları”, Bakı, 2002.
4.www.teknohaber.net

M.A. İsmayılov

Azərbaycan Texniki Universiteti

Şəbəkə topologiyaları və tərkib hissələri

Xülasə

Məqalədə lokal sahə şəbəkəsi və qlobal sahə şəbəkəsinin bir-biri ilə əlaqələndirilməsinə baxılmışdır. Lokalvə qlobal sahə şəbəkələrinin bir-biri ilə müxtəlif məsafələrdə, müxtəlif şəbəkə qurğuları vasitəsilə əlaqələndirilməsi ilə meydana gələn şəbəkədir. Məqalədə həmçinin şəbəkə üzərində kompüterlərin bir biriləri ilə əlaqə qura bilmələri üçün şəbəkə protokollarının istifadə qaydalarına xüsusi fikir verilmişdir.

Network topologies and components

SUMMARY

The article is one of a local area network, and a global network linking the area considered. Lokalvə global area networks at different distances from each other, with coordination through various network devices in the network. The article also able to communicate with each other over a network of computers in a given special attention to the rules for the use of network protocols.

Мягаляни чап олунмаг цчцн AzTU-nun "Kompyuter sistemləri və şəbəkələri" кафедрасынын müdiri, professor.V.H. Musayev məqdim etmişdir.